*"Kamal Abdullanın yazdığı "Söz" hər zaman düşündürür. Fikir yüklü, hərəkət yüklü olur. "Unutmağa kimsə yox", "Səsimdən yapış", "Yolla gedən olmasa, bilinməz gəlir bu yol, ya gedir"...*

*Kamal müəllimin getdiyi yol, hər zaman mədəniyyət, ədəbiyyat, fikir axtarışı və tapdıqları ilə özündən sonra gələnlər üçün yeni yollar açmaq olub. Mənim onu tanımağıma yol açan isə ustadım Vaqif İbrahimoğlu olub.*

*Kamal müəllimin yazdığı "Bir, iki - Bizimki!" pyesini Vaqif müəllim qeyri-adi bir tamaşaya çevirdi. Təbii ki, əsər bu qeyri-adi tamaşaya çox gözəl zəmin idi. Və mənim o illərdə gənc aktyor olaraq zehnimdə xüsusi olaraq həkk oldu. O zamandan Kamal Abdullanın yazdığı "Söz"ü maraqla, hərisliklə oxuyuram.*

*Kamal Abdullanı yubileyi və bütün millət olaraq həsrətlə gözlədiyimiz Qarabağ torpaqlarımızın işğaldan azad olunması münasibətilə təbrik edirəm. Bu zəfər hissi, qalibiyyət hissi hər birimiz üçün böyük hədiyyədir. Kamal müəllimə cansağlığı və artıq Zəfər yolumuzda yeni "Söz" axtarışları arzu edirəm".*

**Mehriban ZƏKİ**,
*Xalq artisti*